
■ Sabir Haka

Sabir Haka 1986-cı il may ayının 22-də İranın Kirmanşah vilayətində dünyaya gəlmişdir. Əsl adı Sabir Qubadidir, milliyyətcə kürddür və hal-hazırda Tehranda yaşayır. Özü də tikintidə fəhlə işləyən şair İranda "Fəhlələr şairi" ləqəbi ilə tanınır və 2013-cü il İran üzrə fəhlə şeiri mükafatının qalibi olmuşdur. Sadə və yalın bir dilə malik olan Sabir Haka poeziyasının əsas mövzusu tikinti fəhlələrinin acınacaqlı həyat tərzini, onların arzularını və s. əhatə edir. "Qorxuram ki, öləndən sonra da fəhlə olam", "Daimi qaçmaq qayğısı", "Ayrılıq bir göydələnin son mərtəbəsi kimi" adlı şeir kitabları dəfələrlə çap olunmuşdur.

## XARTUT

İndiyədək
görmüsənmi xartutun düşdüyünü?!
Öz qırmızılığını
torpaqla
necə bölüşdüyünü?!
(Düşmək kimi ağrılı şey yoxdur).
Çox fəhlələr görmüşəm mən,
yıxılarkən tikintidən
xartut olurdular...

## SƏBƏB

Tanrıyla dost olmamağımın
tək səbəbi
uzaq keçmişlərə gedib-çıxır.
Belə ki,
altı nəfərlik ailəmiz
kiçik bir otaqda yaşadığı halda
tək olan Tanrının evi
daha böyük idi
bizim evimizdən!

## QORXURAM Kİ, ÖLƏNDƏN SONRA DA FƏHLƏ OLAM!

Bütün həyatım boyu
bu əqidədə olmuşam
ki, yalan danışmayım,
qırmayım heç bir insanın qəlbini.
Və qəbul etmişəm
məhv olmağın
həyatın bir parçası olduğunu.

Amma buna baxmayaraq,
qorxuram öz ölümümdən.
Qorxuram ki,
öləndən sonra da fəhlə olam!

## BİR GÜN ÖLSƏM...

Bir gün ölsəm,
özümlə aparacağam
sevdiyim kitabların hamısını.
Sevdiyim insanların şəkli ilə
dolduracağam qəbrimi.

Kiçik bir otağım var deyə sevinib,
gələcək qorxusu yaşamadan
uzanacağam,
bir siqaret yandıracağam.
Sarılmaq istədiyim
bütün qızlar üçün
ağlayacağam.

Amma
böyük bir qorxu gizlənib
hər ləzzətin içində.
O qorxu ki,
səhər-tezdən bir nəfər
çiynini tərpədib deyər:
- Qalx, Sabir!
İşə getməliyik...

## FƏHLƏ

Atam fəhlə idi.
İmanlı bir kişiydi,
hər dəfə namaz qılarkən
Tanrı
xəcalət çəkirdi
onun əllərindən!

## FƏHLƏNİN GÜCÜ

İnanın ki,
əgər tüfəngi ixtira etməsəydilər,
daha az insan öldürülərdi
bir neçə metrlik məsafədən!
Və işlərin çoxu
daha asan olardı.
Bunlara daha asan başa salardın
ki, nə qədər
gücü ola bilər
bir fəhlənin!

## MAŞINLAR

Maşınların heç bir hissiyyatı yoxdur.
Yorulmurlar.
Gecə ağrı tutmur bellərindən.
Gələn ayın kirayəsini düşünmürlər.
Və ən önəmlisi -
həftə sonu müavinət istəmirlər
iş sahibindən.
Eynilə
dünən fabrikdə atamın yerini tutan
o maşın kimi!

## FƏHLƏ OLDUM!

Mən əsla
sadə bir bank işçisi,
ərzaq məhsulları satıcısı,
bir partiya başçısı,
taksi sürücüsü,
ya da təbliğat işləri üzrə bir marketoloq ola bilmərəm!

Həmişə istəmişəm ki,
saatlar boyunca
şəhərdən daha yüksək bir zirvədə dayanım.
Və sevdiyim insanın
evini axtarım
binaların sıxlığında.
Buna görə fəhlə oldum!

## TƏKCƏ MƏNİM DİYARIM

Ağuşun
təkcə mənim diyarım oldu.
Nigaran qalma,
cibimi doldurmuşam
sənin öpüşlərinlə.
Daha fərqi yoxdur mənim üçün:
Cəhənnəm,
cənnət,
ya döyüş meydanı!

## TORPAĞA NƏ ƏKSƏN, CÜCƏRƏCƏK...

Kaş ki, heç vaxt böyüməzdim
və anlamazdım
atamın mənə yalan dediyini:
"Torpağa nə əksən, bir gün cücərəcək
və bu, Tanrının lütfüdür!"

Niyə heç kim anlamır?
Uzun illər gözlədim mən,
amma
anam
cücərmədi!

## QAYNAQÇI KİŞİLƏR ÜÇÜN BİR ŞEİR

Düşünürəm ki,
Tanrı da bir fəhlədir.
Məsələn, bir qaynaqçıdır
bütün başqa qaynaqçı kişilər kimi.
Onun gözləridir
gün batanda
hərdən qızaran.
Və köynəyidir
gecə
irili-xırdalı dəliklərlə dolu olan!

## QAR

Çox şeyin üstünü örtər qar,
kəfənə bükmüş olduğun cənazəni məsələn!
Bina,
ağac,
qəbir skeletlərinin üstünü.
Qar
və yalnız qar örtə bilər
sərhədləri!

## FƏHLƏLƏRİN GÖZƏL QADINLARI VAR...

Fəhlələrin
sadə həyatları,
gözəl qadınları var.
Hər gün
işdən sonra
göydələnlərdən
təzə və bəmbəyaz buludlar gətirirlər onlar
evlərinə!

## EŞQ

Mən buna qarşıyam
ki, eşq insana hər şey bəxş edir.
Eşq müharibədən dəfələrlə pisdir.
Məhv edir hər şeyi.
Vətəni,
ailəni,
həyatı,
hətta insanın özünü belə.
Və budur
illərlə qürbətdə yaşamağımın
səbəbi!

## SƏNİN SƏSİN

Sənin səsin güllərin oyanışıdır.
Sənin səsin gözəlliyin nəhayətidir.
Sənin səsin xalıdakı güllərin rəqsidir.
Sənin səsin sənin özün kimidir.
Sənin səsin otağımı doldurub.
Sənin səsinlə yatıram mən.

Sənin səsin şeirdir, musiqidir.
Sənin səsin eşqdir.
Sənin səsinlə tutulub bütün cahan!
Röyalarım sənin səsinlə yozulur.
Sənin səsin mənim dayağımdır.
Qoy sənin səsinə söykənim.

Sənin səsin ətrafında dövrə vurur
mənim bütün otağım.
Səsində gözündəki parıltı kimi bir şey var
möhtac olduğum.
Yalnız sənin səsinə söykənirəm mən.
Məndən əsirgəmə bu dayağı.
Sənin səsin dincliyin özüdür.
Ürəyimin dincliyi...
Səsini məndən alma.

## QÜRBƏTİN UZAĞI DA, YAXINI DA BİR AH QƏDƏRDİR...

Bəzi şeylər
yalnız uzaqdan rahat və gözəl görünürlər.
Və insan
israr etməməlidir onlara yaxınlaşmaq üçün.
Eşq,
siyasət,
mühacirət kimi...

Göydələnlərin üstündə
çox köçəri quşlar görmüşəm mən
gözləri yaşla dolu!

## ACLIĞIN TƏSİRİ

Bir ağac
qovun dadı verən dondurma ola bilər,
Ay bir soyutma yumurta,
Günəş soyulmuş kartof.
Daş döşəmələr şirniyyat ola bilər -
müxtəlif şəkilli və dadlı.
Bir boşqab düyü ola bilər buludlar.
Adamlar da həmçinin.
Yalnız bir şərtlə ki,
tamamilə pulsuz olasan
və ac ayaq basasan küçəyə!

## HƏYAT BOŞ VƏ YORUCU BİR FİLMDİR...

Bəzən yoruluram işdən-gücdən,
ağlamaq tutur məni
və tənhalığa sığınmaq istəyirəm.
Amma özümə ümid verirəm ki,
səbirli olum,
düşünüm ki, "Həyat" adlı
boş və yorucu bir filmin
aktyoruyam.
Hər halda
hamı ən azından bir dəfə
baxmaq istəyər
öz filminə!

**Fars dilindən tərcümə edən:**
**Məhəmməd Nuri**